BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Humanitar elmlər seriyası 2025

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK SİYASƏTİNDƏ MİLLİ ORDU QURUCULUĞU MƏSƏLƏLƏRİ

**Kəmalə İ. MƏMMƏDOVA***

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövlətinin 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində üzləşdiyi bir sıra ictimai-siyasi sarsıntılar, Ermənistanın ədalətsiz ərazi iddiaları və hərbi təcavüzü nəticəsində 1991-1993-cü illərdə erməni silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğalı, 1992-ci ildə Rusiyanın 366-cı motoatıcı alayının da iştirakı ilə törədilən Xocalı soyqırımı və s. faciələr fonunda xalqın müstəqilliyini və ölkənin ərazi bütövlüyünü qorumağa qadir olan ordunun formalaşdırılması ilə bağlı məsələlər nəzərdən keçirilir.Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanın dövlət quruculuğu siyasətində dövlətçilik tarixində hər zaman prioritet məsələlərdən biri olan ordu quruculuğu ilə bağlı həyata keçirdiyi yorulmaz fəaliyyəti işıqlandırılır, böyük təşkilatçılıq qabiliyyəti sayəsində həyata keçirdiyi uzaqgörən tədbirlərin məntiqi yekunu kimi əldə olunan uğurlar qeyd edilir. Bu uğurların onun siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsindən və Ali Baş Komandanın başçılığı altında böyük qəhrəmanlıqlar və şücaət göstərən qüdrətli Ordumuzun erməni işğalçılarını torpaqlarımızdan qovaraq, xalqımızın tarixinə qızıl hərflərlə şanlı Zəfər salnaməsi yazmalarından bəhs edilir. Eyni zamanda məqalədə Ümummilli lider Heydər Əliyevin Azərbaycanın hərb tarixi ilə bağlı irsinin araşdırılmasının, XX əsrin 90-cı illərinin ortalarından bugünədək Ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ordu quruculuğundakı fəaliyyətlərinin və nailiyyətlərinin tədqiqata cəlb edilməsinin, təhlil edilməsinin, nəticə olaraq ortaya çıxan həqiqətlərin dünya ictimaiyyətinə və gələcək nəsillərə çatdırılmasının qarşıda duran mühüm vəzifələrdən biri olması fikri irəli sürülür.*

**Açar sözlər:**Ümummilli lider, orduda böhran, milli ordu, 44 günlük Vətən (İkinci Qarabağ) müharibəsi, Zəfər

**https://doi.org/10.30546/458901.2025.03.2016**

**Giriş.** Dövlətin qüdrətli Silahlı Qüvvələrinin olması onun mövcudluğunun ən vacib amillərindən biridir. Dövlətin suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsində güclü ordunun olması mühüm yer tutur.

Bu gün dövlətimizin qüdrətinin göstəricisi və xalqımızın iftixarı, ölkəmizin ərazi bütövlüyünü təmin edən Azərbaycan Ordusu yüksək hazırlığı ilə seçilir. Tarixin bütün dönəmlərində xalq və ordu arasındakı əlaqə, xalqın müharibənin aparılmasına münasibəti və müharibəyə səfərbərliyin həyata keçirilməsi, ölkənin müdafiəsinin təmin edilməsi üçün maddi və mənəvi

amillərdən asılılıq, müdafiəni təşkil etmək məqsədilə dövlətin apardığı siyasətin xarakteri, xarici siyasətin nəzərə alınması və s. kimi məqamlar mahiyyət etibarilə dəyişməzdir və hərb işinin əsasını təşkil edir. Dəyişən bu məqamların yüksək məharətlə icrasını hərəkətə gətirən qüvvələrdir. Bu baxımdan Azərbaycan yenidən müstəqilliyini elan etdiyi illərdən bugünədək Azərbaycan Ordusunun yaranması və keçdiyi yolu araşdırmaq mühüm aktuallıq kəsb edir.

Azərbaycanın zəngin dövlətçilik tarixində hər zaman prioritet məsələlərdən biri güclü ordunun yaradılması olmuşdur.

XX əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şəraitdə olduğu kimi, XX əsrin sonlarında – 1988-ci ildən başlayaraq SSRİ-nin süqutu ərəfəsində regionda cərəyan edən siyasi proseslər, baş verən hadisələr zamanı da Azərbaycan ordusundan söhbət gedə bilməzdi.

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğunu şərtləndirən amillər.** Azərbaycan Xalq Cümhuriyyətinin ən vacib vəzifələrindən biri hərbi ordu quruculuğu kimi müəyyən edilmişdi. Təsadüfi deyil ki, bu prioritet məsələni həll etmək üçün hökumət bir sıra ciddi tədbirlər həyata keçirmiş və nəticədə ilk əvvəl 25 min nəfərlik ordunun yaradılması nəzərdə tutulsa da, 40 minlik ordu yaradılmışdı. Qeyd etmək lazımdır ki, ordunun formalaşması prosesi ölkədə hakim olan mürəkkəb hərbi-siyasi vəziyyət şəraitində gedirdi; bu isə öz növbəsində ordunun yaranma və inkişaf prosesinə öz təsirini göstərirdi.

Bu dövrdə bir tərəfdən ölkənin cənub bölgəsi olan Lənkəranda Azərbaycan əleyhinə olan qüvvələr, denikinçilər və bolşeviklər bölgəni Azərbaycandan qoparmağa çalışaraq buranı gələcəkdə Azərbaycanın üzərinə hücuma keçmək üçün plasdarm halına gətirmək istəyirdilər. Digər tərəfdən, Azərbaycanın Qarabağ və Zəngəzur bölgələrində erməni təcavüzü genişlənməkdə davam edirdi. Ermənistan tərəfindən dəstəklənən bu hərəkat həmin əraziləri Azərbaycandan qopararaq Ermənistana birləşdirməyi qarşılarına məqsəd qoymuşdu [6,71].

**1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində sovet rəhbərliyinin Azərbaycana qarşı yeritdiyi məkrli siyasət və onun acı nəticələri.** Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövləti də 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində bir sıra ictimai-siyasi sarsıntılarla üzləşdi. Sovet hakimiyyəti illərində ermənilər SSRİ rəhbərliyində yetərincə təmsil olunduqları üçün hər zaman xalqımıza və Vətənimizə qarşı birtərəfli siyasət yeridilməsinə nail olmuşdular. 1985-ci ildə sovet rəhbərliyinə Mixail Qorbaçov gəldi və milli siyasət sahəsində kobud səhvlər buraxaraq ermənipərəst mövqe tutduğunu nümayiş etdirdi. Həmin dövrdə sovet rəhbərliyinin bu siyasətinə qarşı öz etirazını bildirən, mərkəzdə ermənilərin Azərbaycan SSR-yə qarşı fitnəkarlıq planlarının həyata keçməsinə hər za-

man mane olan görkəmli dövlət xadimi Heydər Əliyev tezliklə vəzifəsindən uzaqlaşdırıldı. Bundan dərhal sonra, ermənilər Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatlar, terror əməlləri ilə çıxış etməyə başladılar. 1987-ci ilin noyabrında Dağlıq Qarabağ erməniləri öz separatçı tələblərini irəli sürdülər. 1980-ci illərin sonlarında SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edən ermənilər SSRİ rəhbərliyinin və Ermənistan SSR rəhbərliyinin dəstəyi və xaricdəki erməni diasporunun köməyi nəticəsində daha fəal hərəkata keçdilər.

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı və azərbaycanlıların Qərbi Azərbaycandakı (indiki Ermənistan) tarixi torpaqlarından növbəti kütləvi deportasiyası ilə müşayiət olunan gərginliyin qarşısını almaq əvəzinə sovet rəhbərliyi Azərbaycan xalqına qarşı növbəti dəhşətli cinayət həyata keçirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ qoşunları Bakıya yeridildi və Qanlı Yanvar faciəsi törədildi. Xalqımızın ağır vəziyyətdə idi. Ölkəmizdə sovet hərbçiləri hökmranlıq edirdi. Həmin günlərdə Azərbaycan televiziya və radiosu işğalçı sovet ordusunun nəzarəti altına alınmışdı. Xalqımızın başına gətirilən müsibətlər SSRİ xalqlarından da, dünya ictimaiyyətindən də gizlədilərək, hadisələr başqa cür qələmə verilirdi. Belə bir vaxtda Moskvada Bakı qırğınını törədənlərin qanlı cinayətlərini açıb göstərən, bütün dünyaya bütün həqiqəti elan edən bir səs ucaldı.

Xalqımızın bu ağır günündə Heydər Əliyev xəstə olmasına və təqib edilməsinə baxmayaraq Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gələrək doğma xalqına başsağlığı verdi. O, Bakıya qoşun yeridildiyi, xalqa divan tutulduğu üçün SSRİ-nin və Azərbaycan SSR-in rəhbərlərini kəskin tənqid etdi.

**Müstəqilliyin ilk illərində Azərbaycanda ordunun vəziyyəti.** Bu hərbi təcavüz Azərbaycan xalqının azadlıq uğrunda mübarizə əzmini daha da alovlandırdı və tezliklə Azərbaycan yenidən müstəqil dövlət kimi dünya birliyinə daxil oldu. Lakin bu dəfə də Azərbaycan XX əsrin əvvəllərində olduğu kimi yenidən Ermənistanın ədalətsiz ərazi iddiaları və hərbi təcavüzü ilə üz-üzə qaldı. 1991-1993-cü illərdə erməni silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalı, 1992-ci ildə Rusiyanın 366-cı motoatıcı alayının da iştirakı ilə törədilən Xocalı soyqırımı və s. faciələr xalqın müstəqilliyini və ölkənin ərazi bütövlüyünü qorumağa qadir olan ordunun formalaşdırılmasını tələb edirdi. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası dövründə vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordu hələ yaradılmamışdı. Belə bir şəraitdə milli ordunun yaradılması məsələsi vacib bir problem kimi gündəmə gəldi.

Bu gün malik olduğumuz Milli Ordunun yaradılması istər sovet dövründə Azərbaycana rəhbərliyi, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə ən doğru, ən təsirli vasitələri tapıb, qarşıda dayanan vəzifələrin yüksək icrasına nail olan Ümummilli lider Heydər Əliyevin siyasi uzaqgörənliyi, yorulmaz fəaliyyəti, böyük təşkilatçılıq qabiliyyəti sayəsində həyata keçirilib və onun Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biridir.

**Azərbaycanda ordu quruculuğu sahəsində Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən tədbirlər.** Hələ sovet dönəmində, 1971-ci ildə Ümummilli liderin təşəbbüsü ilə Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması və fəaliyyəti nəticəsində azərbaycanlı zabit kadrların hazırlanmasına başlanılmışdı. Ümummilli liderin uzaqgörən siyasəti sayəsində yaradılan bu məktəb müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm rol oynadı. Azərbaycanda Hərbi məktəbin yaradılmasını Respublika Milli Qvardiyasının Qərargahında Azərbaycanın milli qəhrəmanı Əfqan Hüseynovun büstünün açılışı mərasimindəki 28 may 1995-ci il çıxışında Ümummilli lider belə dəyərləndirirdi: “25 il bundan öncə mən Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq fikri irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da mənim həyatımda gördüyüm işlər içində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm. Mən belə bir addım atarkən...təkcə o günləri yox, Azərbaycanın gələcəyini düşünürdüm”[4, 3].

1993-cü ildə hakimiyyətə ikinci qayıdışı zamanı qarşısına Azərbaycanın müstəqilliyini möhkəmləndirmək və Azərbaycanı müharibə vəziyyətindən çıxarmaq məqsədini qoyan Ümummilli lider Heydər Əliyev əsası Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qoyulan milli dövlətçilik düşüncəsini müstəqil Azərbaycan dövlətinin reallığına çevirdi. Onun apardığı məqsədyönlü və qətiyyətli siyasətinin təxirəsalınmaz tədbirləri sırasında ordu quruculuğu məsələsi də önəmli yerlərdən birini tuturdu. Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməklə yanaşı, ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi həm də həmin dövrdə ölkəmizə qarşı ikili standartlardan çıxış edən güc dövlətlərinin və ərazilərimizi işğal altında tutan erməni separatçılığının, təcavüzünün qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edirdi. Ümummilli liderin həmin dövrdə dövlət başçısı kimi əməli fəaliyyəti nəticəsində “XX əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələri məhz Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun layiqli varisi”nə [2] çevrildi və dövlətçilik ənənələrimizə söykənərək, dövlət quruculuğunun şərəfli və parlaq səhifələrindən biri kimi Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qa-

dir olan, bu gün artan və qüdrətlənən gücü ilə qürurlandığımız Azərbaycan Ordusunun yaradılması həyata keçirildi. Dövlət müstəqilliyinin qorunmasında ordunun müstəsna rol oynadığını dərk edən Ümummilli lider çıxışlarında dəfələrlə vurğulayırdı ki, "Möhkəm, daimi sülh üçün müstəqil dövlətin güclü ordusu olmalıdır".

**Azərbaycan ordusundakı ağır böhranın aradan qaldırılması sahəsində Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlər.** Heydər Əliyev Bakıya dəvət olunanda Azərbaycan Ordusunda ağır böhran mövcud idi. Bu böhranın xarakterik tərəfləri aşağıdakılardan ibarət idi:

- orduya dövlət rəhbərliyi təmin edilməmişdi;
- ordu quruculuğu ilə bağlı dövlətin aydın proqramı yox idi;
- dövlət və ordu bir-birindən ayrı düşmüşdü;
- ordu siyasi işlərə cəlb edilmişdi;
- ordu daxilində siyasi mənsubiyyətə və məqsədlərə görə parçalanma yaranmışdı;
- ordu daxilində xaos, özbaşınalıq, qanunsuzluqlar baş alıb gedirdi;
- sovet ordusundan miras qalmış hərbi əmlakın böyük bir hissəsi məhv edilmişdi;
- orduya çağırış işi özbaşına buraxılmışdı;
- ordunun döyüş qabiliyyəti zəruri tələblərə cavab vermirdi;
- orduya vahid komandanlıq təmin edilməmişdi [10, 12-13].

Ümummilli liderin hakimiyyətə gəlməsi ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində idi. Cəbhədə ağır məğlubiyyətlər bir-birini əvəz edirdi. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə içərisində yaşayırdı. Atışma səsindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi.... Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilmişdi. Hərb sənətinin nə olduğunu bilməyən R.Qazıyev ölkəni ordusuz qoymuşdu. Cəbhə düşmənin üzünə açıq idi [8, 174]. Belə bir şəraitdə Ümummilli lider Heydər Əliyevin hərbi siyasəti Respublikanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü etibarlı şəkildə qorumaq və ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsinə hesablanmışdı. Bu siyasəti səmərəli şəkildə həyata keçirmək üçün bütün potensialını məqsədyönlü şəkildə bu istiqamətə yönəldən dövlət başçısı Azərbaycanın daxili hərbi-siyasi sabitliyinin, vətəndaş həmrəyliyinin və xalqın birliyinin təmin edilməsinin əhəmiyyətini düzgün qiymətləndirdi.

Dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə ordu quruculuğuna xüsusi önəm verən Respublika Prezidenti Heydər Əliyev 2 noyabr 1993-cü ildə xalqa müraciətində "Bunları etiraf etmək" ağır, çətin, "açı olsa da, bu həqiqət"lərlə bağlı məlumat verərək bildirdi ki, "məğlubiy-

yətlərimiz bir tərəfdən Azərbaycan Ordusunun hissələrinin bir çox yerlərdə gücsüzlüyü nəticəsində, döyüş qabiliyyətinin olmaması nəticəsində baş vermiş", "əsgərlərimiz, döyüşçülərimiz öz mövqelərini vuruşmadan, yerli əhalidən qabaq tərk etmişlər". Müraciətdə qeyd edilirdi ki, "iki il müddətində müstəqil dövlətimiz öz müdafiə qüvvələrini, öz ordusunu yaratmalı idi. Bundan ötrü Azərbaycan Respublikasının bütün imkanları vardı. Ordunu bir gündə, beş gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki il, üç il müddətində ordu yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək və ərazi bütövlüyünü də təmin etmək mümkün idi. Lakin bu fürsətlər əldən verilib və Azərbaycanın müdafiə imkanları get-gedə möhkəmlənmək əvəzinə zəifləmişdir. Ayrı-ayrı dəstələr, qruplar, yaxud batalyonlar tərəfindən aparılan ayrı-ayrı döyüşlərin hamısı pərakəndə şəkildə olmuş, müxtəlif qüvvələrə, məqsədlərə xidmət etmiş, böyük bir hərbi strategiya, müdafiə strategiyası əsasında, hərbi nizam-intizam əsasında görülən tədbirlər olmamışdır. Belə hallar bəzən Azərbaycan ictimaiyyəti arasında cürbəcür əsassız təbliğatların yayılmasına gətirib çıxarmışdır. Əslində isə Azərbaycanın müdafiə qüvvələri günbəgün, aybaay zəifləmişdir" [3]. Müraciətdə ordu quruculuğu məsələlərinə diqqət çəkən dövlət başçısı Heydər Əliyev vurğulayırdı ki, "Azərbaycanın müstəqil dövlət olduğu dövrdə respublikanı etibarlı müdafiə etmək üçün lazımi silahlı qüvvələr yaransaydı, daxili sabitlik olsaydı və bütün qüvvələr torpaqlarımızı qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə yönəldilsəydi" [3], daxildəki çəkişmələr, toqquşmalar, rəqabət aradan qaldırılsaydı "cəbhə bölgələrindəki uğursuzluqlar, bəzi rayonların erməni silahlı qüvvələri tərəfindən işğal olunması" [3] baş verməzdi.

Beləliklə, "ordu hissələrinin bəzilərinin döyüşsüz, müqavimətsiz geri çəkilməsi, bəzən isə yerli əhalini vahiməyə salaraq, qorxudaraq vaxtından əvvəl öz yerlərindən çıxarılması, ayrı-ayrı cinayətkar dəstələrin, müxtəlif siyasi qrupların yenə də şəxsi mənafelərinə, məqsədlərinə nail olmaq üçün apardıqları təxribatlar"ın [3] getdiyi, müdafiə qüvvələrinin pozulduğu, orduda nizam-intizam, tələbkarlıq, qanun-qaydanın olmadığı, eyni zamanda orduda mənəviyyat pozğunluğu, cinayətkarlığın artdığı, cinayətkar ünsürlərin üstün mövqe tutduğu şəraitdə "qısa müddətdə istənilən səviyyədə ordu yaratmaq, Azərbaycanı müdafiə etmək çox çətin vəzifə" [3] idi.

**Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətində ordu quruculuğu Azərbaycanın müstəqilliyinin atributu kimi.** Birinci Qarabağ müharibəsinin davam etdiyi dövrdə Ümummilli lider Heydər Əliyev dövlətin qüdrətinin artırılmasında bəşəri və mənəvi dəyərlərin varisliyinin təmin edilməsinin mühüm rolunu önə çəkirdi. 1998-ci il iyunun 26-da Azərbaycan Milli ordusunun 80 illik yubileyinə həsr olunmuş təntənəli yubiley mərasimində çıxış edən dövlət başçısı Heydər Əliyev görkəmli Azərbaycan generalları – Cəmşid Naxçıvanski, Fərəc bəy Ağayev, Əliağa Şıxlinski, Səməd

bəy Mehmandarov və digərlərinin xalqımız üçün xidmətlərini yüksək qiymətləndirmişdi. Ümummilli lider Heydər Əliyevin fəaliyyətində bu və digər generallarımızın gənclərə örnək olacaq həyatlarının öyrənilməsi üçün onlar haqqında əsərlərin yazılıb təbliğ edilməsi, xatirələrinin əbədiləşdirilməsi, onların vətənpərvərlik hisslərinin xalqımıza aşılanması əsas məsələr sırasında idi.

Atəşkəsin əldə edilməsindən sonra dövlət başçısı Heydər Əliyev dinc fürsətin əldə edilməsini ordu quruculuğunun sürətləndirilməsi üçün münasib imkan kimi qiymətləndirdi. Ordu quruculuğuna Azərbaycanın müstəqilliyinin atributu, davamlı bir proses kimi baxdığı üçün o, milli zabit kadrlarının hazırlanması məqsədilə mükəmməl bir hərbi təhsil sistemi formalaşdırdı, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi daimi diqqət altına alındı.

Orduya səfərbərlik işinin düzgün təşkil edilməsinə böyük əhəmiyyət verən və bu məsələni hərbi komissarlıqlar və hərbi strukturlarla yanaşı, eyni zamanda, dövlət və hakimiyyət orqanlarının qarşısında dayanan çox mühüm vəzifə hesab edən ulu öndər Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciətdə onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən qanunsuzluqların, başlıcası isə fərariliyin qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırırdı. Ümummilli lider Heydər Əliyev müharibə veteranlarının qəhrəmanlıq nümunələrinin heç vaxt unudulmayacağını qeyd etməklə, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldığı həmin illərdə "Siz də gənclərimizin vətənpərvərlik tərbiyəsi, onların döyüş ruhunun qaldırılması, vətənə sədaqət, xalqa xidmət ruhunun yüksəldilməsi üçün fəal çalışmalısınız" [5, 563] deyərək Böyük Vətən müharibəsi veteranları qarşısında öhdəliklər qoyurdu.

Ümummilli lider bütövlüklə dünyanın sülh şəraitində yaşamasının "ötən müharibədə iştirak etmiş, həlak olmuş, qanı tökülmüş adamların, bu günədək yaşayan veteranların xidməti" [5, 562] olduğunu qeyd etməsi, 1941-1945-ci illər Böyük Vətən müharibəsi veteranlarına diqqəti və qayğısı gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsində mühüm rol oynadı. Qeyd edək ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi veteranlarının keçdikləri döyüş yolu və həyatı I və II Qarabağ müharibələri dövründə gənclər üçün böyük örnək olmaqla yanaşı, eyni zamanda Milli Ordu quruculuğu sahəsində bir təcrübə idi.

Ümummilli lider Heydər Əliyevə görə peşəkarlıqla bərabər, mənəviyyat saflığı, əqidə bütövlüyü, vəzifə borcuna sadiqlik zabit kadrlarının başlıca keyfiyyətləri hesab olunmalı idi və buna nail olunması ordu quruculuğunun ümdə vəzifələrindən biri idi.

Dövlət başçısının xalqa bu müraciəti sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd olmaqla, ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcını qoydu.

Göstərdiyi böyük əzmkarlıq və ardıcıl fəaliyyəti ilə xalqın bütün təbəqələrinin ümumdövlət mənafelərini əks etdirən, dövlətin və xalqın ümummilli məqsədlər ətrafında birləşməsinə nail olan ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi.

Ümummilli Lider Heydər Əliyevin silahlı qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı öncəki illərdən fərqlənərək əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmələrin və hərbi hissələrin maddi-texniki, təbii, səyyar və digər vasitələrlə təminatı təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ölkəmizin silahlı qüvvələrinə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vəsaitlərin istehsal olunması üçün sifarişlərin Azərbaycan Respublikasının sənaye müəssisələrində yerləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi [9, 5].

Azərbaycan Ordusunu yaradan və onun formalaşması prosesini daim diqqət mərkəzində saxlayan Ümummilli Liderin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası təkmilləşdirildi, onun inkişafı, modernləşdirilməsi və möhkəmləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirildi. “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” qanunlar qəbul olundu. Ümummilli liderin 1998-ci il 22 may tarixli fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi.

Ölkəmizdə milli-hərbi kadrların yetişdirilməsi üçün müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə ulu öndər Heydər Əliyev tərəfindən 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında imzalanan fərman oldu.

Ümummilli lider arzu edirdi ki, “hər bir Azərbaycan gənci Azərbaycan ordusunda xidmət etməyi özünün müqəddəs vəzifəsi kimi qəbul etsin”. Əsgərlik borcunu yerinə yetirməyi hər bir azərbaycanlı gəncin müqəddəs vəzifəsi hesab edən Ümummilli liderə görə Milli Ordumuzda xidmət etmək hər bir Azərbaycan gəncinin şərəfli vətəndaşlıq borcudur. O, hesab edirdi ki, “Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik ol-

sun. Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın". Bu səbəbdən 20 iyun 2001-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbində keçirilən görüşdə söylədiyi kimi, onun "üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir". O, qeyd edirdi ki, "Azərbaycan Ordusu, Silahlı qüvvələri böyük gələcəyə baxmalıdır. Ancaq bu böyük gələcəyi təmin etmək üçün bu gün Azərbaycanın güclü ordusu olmalıdır. Bu ordu sabah ondan güclü, beş il sonra ondan da güclü, on il, on beş il sonra daha da güclü olmalıdır. Azərbaycan Prezidenti və Ali Baş Komandan kimi, mən bu siyasəti aparıram və sizdən onu tələb edirəm. Buna nail olmaq üçün əlimdən gələni etmişəm və bundan sonra da edəcəyəm" [7, 28]. Ordumuzun artan gücünə daim inanan ümummilli lider 2002-ci ilin iyulunda Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdəki çıxışında bunu belə ifadə etmişdi: "Bizim ordumuz güclüdür. Ordumuzun gücü günü-gündən artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir" [1].

**Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğunun Zəfərlə başa çatdırılması.** Müasir və modern Azərbaycan Ordusunun yaradıcısı Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. 2003-cü ildən bu vaxta kimi dövlətimiz tərəfindən ordu quruculuğuna, hərbi xərclərə ayrılan vəsaitin məbləği ildən-ilə artırıldı, ordumuz üçün hava hücumundan müdafiə sistemləri, uzaqmənzilli raketlər, döyüş təyyarələri, ən müasir pilotsuz uçuş aparatları, texnika və silahlar alındı.

Hazırda regionun ən güclü ordusu statusuna malik, qalib ölkənin qalib Ordusu olduğunu bütün dünyaya bəyan edən Azərbaycan Ordusu aparılmış məqsədyönlü tədbirlərin və həyata keçirilən islahatların məntiqi nəticəsi kimi Ali Baş Komandanımızın qətiyyəti və böyük sərkərdəlik qabiliyyəti sayəsində 44 gün davam edən İkinci Qarabağ müharibəsində öz tarixi missiyasını ləyaqətlə yerinə yetirdi, 30 illik torpaq, yurd niskilimizə, Vətən həsrətimizə son qoydu. Ümummilli lider H.Əliyevin söylədiyi: "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər" [4, 54] fikrini təsdiq etdi. Böyük qəhrəmanlıqlar

və şücaət göstərən qüdrətli Ordumuz erməni işğalçılarını torpaqlarımızdan qovdu, xalqımızın tarixinə qızıl hərflərlə şanlı Zəfər salnaməsini yazdı.

**Nəticə.** Ümummilli lider Heydər Əliyevin ordu quruculuğuna rəhbərlik etməsi ilə Azərbaycan Ordusu uğurlu şəkildə təşkilatlandı, gücləndi və qısa müddət ərzində böyük inkişaf yolu keçdi. Onun rəhbərliyi ilə həyata keçirilən tədbirlərin məntiqi yekunu kimi Azərbaycan ordusu hərc-mərclik illərindəki siyasi oyunlardan və siyasi qalmaqallardan uzaqlaşdırıldı, ordu yüksək peşəkarlığı ilə seçilən intizamlı, mənəvi cəhətdən saf kadrlarla təmin olundu, ordu gücləndi və vətənimizin suverenliyinin möhkəm təminatçısına çevrildi. Ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsi kimi bu gün Azərbaycan qüdrətli və nizami orduya malikdir.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsini fəaliyyətində prioritet istiqamət kimi bəyan edən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmləndirilir, hərbi qulluqçuların sosial müdafiəsi sahəsində müxtəlif tədbirlər həyata keçirilir. Bu gün Azərbaycan ordusunda Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası əsasında ali hərbi məktəblər sisteminin təkmilləşdirilməsi, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması öz nəticəsini verməkdədir. Bu gün Azərbaycan zabitlərinin NATO-nun mənzil qərargahında və müxtəlif komandanlıqlarında ölkəmizi uğurla təmsil etmələri bunun bariz nümunəsidir.

Azərbaycan Silahlı Qüvvələri fəaliyyətinin əsas istiqamətlərindən biri kimi beynəlxalq əlaqələrini genişləndirmiş və qabaqcıl dünya dövlətlərinin təcrübəsindən bəhrələnərək inkişaf etmişdir. Hazırda ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır.

Bu baxımdan biz tarixçilər qarşısında duran mühüm vəzifələrdən biri də Ümummilli lider Heydər Əliyevin Azərbaycanın hərb tarixi ilə bağlı irsini araşdırmaq, XX əsrin 90-cı illərinin ortalarından bu günə Ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ordu quruculuğundakı fəaliyyətlərini və nailiyyətlərini tədqiqata cəlb etmək, təhlil etmək, nəticə olaraq ortaya çıxan həqiqətləri dünya ictimaiyyətinə və gələcək nəsillərə çatdırmaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - 27 iyul 2002-ci il. https://lib.aliyev-heritage.org/az/3183680.html
2. Azərbaycan Prezidenti Heydər Əliyevin 25 iyun 2002-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə təbriki. "Azərbaycan" qəzeti, 29 iyun 2002-ci il.https://lib.aliyev-heritage.org/az/8887410.html
3. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin milli televiziya və radio ilə xalqa müraciəti. 2 noyabr 1993-cü il. "Azərbaycan" qəzeti, 3 noyabr 1993-cü il. https://lib.aliyevheritage.org/az/5416266.html
4. Əliyev Heydər. Elektron sənədlər toplusu. 6 s. https://files.preslib.az/projects/heydaraliyev/articlas/he0453.pdf
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. I kitab, iyun, 1993 - may, 1994, Bakı, "Azərnəşr", 1997, 608 s.
6. İsmayılov S. Azərbaycan Xalq Cümhuriyyətinin parlament sənədləri 1918-1920-ci illər Vətən tarixini öyrənmək üçün mənbə kimi. Bakı: Ecoprint, 2019, 216 s.
7. Qurbani Abdulla. Heydər Əliyev və Azərbaycan Ordusu. Bakı: Əbilov, Zeynalov və oğulları, 2002, 392s.
8. Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Seçilmiş əsərləri. IX cild, Bakı: Təhsil, 2011, 576 s.
9. Rəsulov R. Heydər Əliyev və müstəqil Azərbaycanın ordu quruculuğu. "Səs" qəzeti, 14 dekabr 2010, https://www.anl.az/down/meqale/ses/2010/dekabr/150163.htm
10. Süleymanov M. Heydər Əliyev müasir Azərbaycan ordusunun qurucusudur. "Hərbi and" qəzeti, 22 may 2020-ci il, s.12-13

## ВОПРОСЫ СТРОИТЕЛЬСТВА НАЦИОНАЛЬНОЙ АРМИИ В ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКЕ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

**Камала И.МАМЕДОВА**

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы, связанные с формированием армии, способной защитить независимость народа и территориальную целостность страны на фоне ряда общественно-политических потрясений, также столкновение современного Азербайджанского государства которое было правопреемником Азербайджанской Демократической Республики – в конце 1980-х – начале 1990-х годов, с Арменией из-за оккупации 20 процентов наших земель вооружёнными силами Армении в 1991-1993 годах в результате несправедливых территориальных претензий и военной агрессии Армении, Ходжалинского геноцида, совершенного в 1992 году при участии 366-го мотострелкового полка России, и других трагедий. После второго возвращения к власти Общенационального Лидера Гейдара Алиева, особо подчёркивается неутомимая деятельность, осуществляемая им в связи со строительством армии, которая всегда была одним из приоритетных вопросов в истории государственности в политике государственного строительства Азербайджана, и отмечаются успехи, достигнутые как логическое завершение дальновидных мер, реализованных им благо-

даря его большим организаторским способностям. Упоминается о том, что эти успехи были достойно продолжены Президентом Азербайджанской Республики Ильхамом Алиевым, преемником его политического курса, и о том, как наша могущественная армия под руководством Верховного Главнокомандующего проявила великое мужество и героизм, изгнав армянских оккупантов с наших земель и вписав славную летопись Победы золотыми буквами в историю нашего народа. В то же время в статье выдвигается мысль о том, что одной из важных задач является исследование наследия Общенационального Лидера Гейдара Алиева в области военной истории Азербайджана, привлечение к исследованиям, анализ деятельности и достижений Общенационального Лидера Гейдара Алиева и продолжателя его политического курса Президента Азербайджанской Республики Ильхама Алиева в строительстве армии Азербайджана с середины 90-х годов XX века по настоящее время и изучение полученных знаний до мировой общественности и будущих поколений.

**Ключевые слова:** Общенациональный Лидер, кризис в армии, национальная армия, 44-дневная Отечественная (Вторая Карабахская) война, Победа

## NATIONAL ARMY BUILDING ISSUES IN THE STATESMANSHIP POLICY OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

**Kemala İ.MAMMADOVA**

### SUMMARY

The article examines issues related to the formation of an army capable of defending the independence of the people and the territorial integrity of the country against the backdrop of a number of socio-political upheavals, as well as the clashes between the modern Azerbaijani state, which was the successor to the Azerbaijan Democratic Republic, in the late 1980s and early 1990s, and Armenia due to the occupation of 20 percent of our lands by the Armenian armed forces in 1991-1993 as a result of unfair territorial claims and military aggression by Armenia, the Khojaly genocide committed in 1992 with the participation of the 366th motorized rifle regiment of Russia, and other tragedies. Following National Leader Heydar Aliyev's second return to power, special emphasis is placed on his tireless efforts to build an army, which has always been a priority in Azerbaijan's state-building policy. The successes achieved are noted as the logical culmination of the far-sighted measures, he implemented thanks to his considerable organizational skills. It is noted that these successes were worthily continued by President Ilham Aliyev, the successor to his political course, and how our powerful army, under the leadership of the Supreme Commander-in-Chief, demonstrated great courage and heroism in driving the Armenian occupiers from our lands and inscribing the glorious annals of Victory in golden letters in the history of our people. At the same time, the article advances the idea that one of the important tasks is to study the legacy of National Leader Heydar Aliyev in the field of military history of Azerbaijan, to engage in research, analyze the activities and achievements of National Leader Heydar Aliyev and the successor of his political course, President of the Republic of Azerbaijan Ilham Aliyev, in building the Azerbaijani army from the mid-1990s to the present, and to share this knowledge with the international community and future generations.

**Key words:** National leader, crisis in the army, National Army, 44-day Patriotic War (Second Karabakh War), Triumph (victory)